

# Azərbaycanda iqtisadiyyatın dayanıqlığı üçün sahibkarlığın inkişafı prioritet olaraq qalır

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra aparılan məqsədyönlü siyasət, həyata keçirilən sistemli tədbirlər nəticəsində ölkəmizdə siyasi və makroiqtisadi sabitliyə nail olunması nəticəsində sahibkarlar sinfinin formalaşması üçün həm hüquqi baza yaradıldı, həm də dövlət tərəfindən özəl sektora hərtərəfli dəstək nümayiş etdirildi.

Ulu öndərdən sonra bu siyasəti inamla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında hazırda Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələ yaşanır. Dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi aspektin mövcudluğunun ön plana çəkilməsidir. Dövlət proqramlarının, fərman və sərəncamların icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payı və rolunu davamlı şəkildə artırır.

İqtisadiyyatın bütün sahələrində dövlət öz imkanları hesabına müasir sahibkarlıq subyektlərinin formalaşmasına geniş imkan yaratmış, onların öz potensiallarından səmərəli istifadə etmələri üçün əlverişli mühit formalaşdırmışdır. Ölkədə həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirilməsinə, ölkənin sosial - iqtisadi problemlərinin həllində sahibkarlığın rolunun gücləndirilməsinə, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəldilmişdir.

Ölkənin iqtisadiyyatında özəl sektorun üstünlük qazanması, neft hasilatının və gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməsi Prezident İlham Əliyevin iqtisadi siyasətinin ana xəttini təşkil edir. Son illərdə dövlət büdcəsinin formalaşmasında qeyri-neft sektorundan gələn gəlirlərin xüsusi çəkisinin yüksələn xətlə artması aparılan siyasətin müsbət nəticələrinin təzahürüdür.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dünya və ölkə iqtisadiyyatında baş verən prosesləri təhlil edərək hadisələrə obyektiv və düzgün qiymət verdi, ölkənin sosial-iqtisadi sahələrindəki mövcud vəziyyətdən, qarşıda duran vəzifələrdən danışdı.

İclasda vurğulandığı kimi, dünyada neftin qiymətinin təxminən iki dəfə ucuzlaşmasına baxmayaraq, ölkəmizə ciddi iqtisadi təsir göstərə bilməyib. Bu da qeyri-neft sektorunun inkişafı, xüsusilə regionlarda yeni istehsal sahələrinin yaradılması nəticəsində mümkün olub. Əhalinin gündəlik tələbatının ödənilməsində xüsusi rol oynayan kənd təsərrüfatı məhsullarının ölkədə istehsalı ciddi qiymət artımına imkan verməyib.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin həmin iclasında bir daha qeyd etdi ki, "Biz liberal iqtisadiyyat, bazar iqtisadiyyatı modelini seçmişik və bu yolla gedirik".

Doqquz ayda Azərbaycan iqtisadiyyatı ümumilikdə 3,7 faiz, sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənayesi 10 faizdən çox artmış və ümumi daxili məhsulun təxminən 70 faizini təşkil etmişdir.

Azərbaycanda qeyri-neft sektoru yüksək templə inkişaf edir və bu sahədə məhsul istehsalı ildən-ilə artır. Təkcə cari ilin yanvar-iyul aylarında xarici ölkələrə 973,4 milyon dollarlıq qeyri-neft məhsulları ixrac olunub ki, bu da keçən ilin yanvar-iyul aylarının səviyyəsini 11,4 faiz üstələyib.

İclasda cənab Prezident qeyd etdi ki, "Gələcək inkişafımızın uğurlu və dayanıqlı davamı üçün sahibkarlığın inkişafı prioritet olaraq qalır. Bu gün özəl sektor inkişaf edir, o cümlədən dövlət dəstəyi hesabına güzəştli kreditlər verilir. Bu kreditlər iqtisadiyyatın real sektoruna verilir. Biz gələcəkdə bu sahədə daha da fəal işlər aparmalıyıq ki, sahibkarlığı maksimum dərəcədə inkişaf etdirək. Sahibkarlara həm siyasi dəstək, həm metodik tövsiyələr, eyni zamanda, əlbəttə, maliyyə resursları verilir ki, onlar iş qursunlar. İndi bölgələrdə əsas infrastruktur layihələri demək olar başa çatır, yollar, kommunikasiyalar salınır, elektrik, qaz, su xətləri çəkilir. Ona görə biznesin inkişafı üçün bölgələrdə və Bakıda yaxşı imkanlar var. Biznes mühitini yaxşılaşdırmalıyıq və biznesin inkişafına təkan vermək üçün əminəm ki, çox ciddi addımlar atılacaq".

2015-ci ilin 9 ayında Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının yekunları göstərir ki, regional və qlobal səviyyədə mürəkkəb siyasi və iqtisadi proseslərin mənfi təsirlərinə baxmayaraq, ölkə iqtisadiyyatının inkişaf dinamikası davam edir.

Qlobal Rəqabət Qabiliyyəti hesabatında Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyəti səviyyəsinə görə 140 ölkə arasında 40-cı yerdə qərarlaşaraq MDB məkanında 7 ildir lider mövqeyini qorumuş, "G-20"yə üzv olan 8 ölkəni qabaqlamış, "Makroiqtisadi vəziyyət" göstəricisi üzrə 10-cu yeri tutmuş, biznesin təkmilləşdirilməsi, əmtəə bazarının səmərəliliyi, daxili bazarın həcmi, infrastruktur göstəriciləri üzrə əhəmiyyətli irəliləyişlərə nail olmuşdur.

Avqust ayında "Fitch" beynəlxalq reytinq agentliyi ölkəmizin reytinqini investisiya səviyyəsində bir daha təsdiq edərək, proqnozu "sabit" saxlamış, Azərbaycana iqtisadi sahədə 3B investisiya reytinqini vermişdir. Həmçinin Beynəlxalq Valyuta Fondu Azərbaycanın 2015-ci il üçün iqtisadi artım proqnozunu 4 faizədək yüksəltmişdir.

Aparılan şaxələndirmə siyasətinin nəticəsidir ki, qeyri-neft sektorunun real artım tempi 6.4 faiz olmuş, əvvəlki dövrlərdə olduğu kimi, 9 ayda da bu sektorun inkişafı hesabına ümumi iqtisadi artıma nail olunmuşdur. Ümumilikdə, qeyri-neft sektorunda yaradılan əlavə dəyər 2003-cü ilə müqayisədə 8 dəfədən çox artmış, qeyri-neft sektorunun ümumi daxili məhsulda payı 70 faizə çatmışdır. Sənaye 2.1 faiz, o cümlədən qeyri-neft sənayesi 10.2 faiz, kənd təsərrüfatı 6.7 faiz, informasiya və rabitə xidmətləri 8.8 faiz, pərakəndə ticarət 11.4 faiz, əhaliyə göstərilən pullu xidmətlər 6.2 faiz artmış, inflyasiya 3.7 faiz təşkil etmişdir.

Əhalinin gəlirlərində artım meylləri davam etmiş və ötən ilin eyni dövrü ilə müqayisədə 5.8 faiz, hər nəfərə düşən gəlirlər 4.5 faiz artmışdır. Yanvar-avqust ayları ərzində orta aylıq əməkhaqqı 4.4 faiz artaraq 460 manata yüksəlmiş, 87 min yeni iş yeri yaradılmışdır ki, onlardan 67 mini daimidir. Ölkə iqtisadiyyatına bütün mənbələrdən 16 milyard dollar sərmayə qoyulmuşdur, onlardan 9 milyardı daxili, 7 milyardı xarici sərmayədir.

Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramına uyğun olaraq, son illərdə müasir quşçuluq və heyvandarlıq komplekslərinin, intensiv bağçılıq və üzümçülük təsərrüfatlarının, logistik mərkəzlərin və taxıl anbarları kompleksinin yaradılması aqrar sektorda dönüşün əldə olunmasına, istehlak bazarının sabitləşməsinə, ixrac potensialının artırılmasına, idxaldan asılılığın azalmasına, ümumilikdə ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə səbəb olmuşdur.

"Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Prezidentin fərmanına uyğun olaraq, ölkədə sahibkarlığın inkişaf etdirilməsi və biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində sistemli tədbirlər davam etdirilir, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla daha mütərəqqi normativ-hüquqi baza formalaşdırılır. Sahibkarlıq subyektlərinin elektron qeydiyyatı, xarici ticarət əməliyyatlarının aparılması, daşınmaz əmlaka hüquqların qeydiyyatı sahəsində keçirilən islahatların davamı olaraq, tikintiyə icazələrin verilməsi, korporativ idarəetmənin təkmilləşdirilməsi, investorların maraqlarının qorunması və müflisləşmə üzrə qanunvericiliyə zəruri dəyişikliklər edilmişdir.

Özəl sektora maliyyə dəstəyinin daha da gücləndirilməsi məqsədilə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 9 ayda 4250 sahibkara 160 milyon manat güzəştli kredit verilmiş və bu kreditlər hesabına 9900-dək yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur. Kreditlərin 47 faizi büdcə, 53 faizi qaytarılmış vəsaitlər hesabına verilmişdir. Bu kreditlərin 64 faizi regionların, 36 faizi Bakı şəhərinin qəsəbələrinin payına düşür. İlin sonunadək 220 milyon manat güzəştli kreditin verilməsi nəzərdə tutulub.

Son 11 ildə isə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə iki milyard ABŞ dolları məbləğində verilmiş güzəştli kreditlərin böyük əksəriyyəti kənd təsərrüfatına və sənaye müəssisələrinin yaradılmasına yönəlmişdir.

2004-cü ildən uğurla icra olunan regionların sosial-iqtisadi inkişafı dövlət proqramları rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə, biznes və investisiya mühitinin, əhalinin rifahının yaxşılaşmasına səbəb olur, bununla da ölkənin strateji inkişaf hədəflərinə, müəyyən edilmiş məqsədlərə nail olunmasına əhəmiyyətli töhfəsini verir.

Sahibkarlığa dövlət dəstəyinin bariz nümunəsi kimi 27 yanvar 2015-cü il tarixdə Heydər Əliyev Mərkəzində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda ölkə Prezidenti dedi ki, biz 2004-cü ilə nəzər salsaq görərik ki, son 11 il ərzində Azərbaycan dünya miqyasında iqtisadi və sosial baxımdan ən sürətlə inkişaf edən ölkə olmuşdur.

Bu il də "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində görülən işlər, həyata keçirilən layihələr, əldə edilən uğurlu nəticələrlə zəngindir.

Daha bir diqqətəlayiq fakt odur ki, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası məqsədi ilə təkcə 2014-cü ildə dövlət büdcəsindən 1 milyard 292 milyon manat vəsait sərf edilmişdir.

2004-cü ildən indiyədək ümumi daxili məhsulumuz 3,4 dəfə, sənaye istehsalı 2,7 dəfə artmışdır. 2004-cü ildə valyuta ehtiyatlarımız 1,8 milyard dollar idisə, bu gün 50 milyard dollardan çoxdur.

Sosial infrastruktur layihələrinin son on bir ildə uğurla icra edilməsi sosial sahəyə, sosial infrastruktura qoyulan vəsaitin və ayrılan diqqətin təzahürüdür. Dövlət Proqramının icrasının birinci ilinin yekunları bir daha təsdiq etdi ki, ölkə rəhbərliyi tərəfindən aparılan iqtisadi inkişaf strategiyası düzgündür və Azərbaycanın daha böyük uğurlar qazanmasına imkan yaradacaq.

Ölkənin davamlı sosial-iqtisadi inkişafının təmin olunmasında, makroiqtisadi sabitliyin qorunmasında, dünya iqtisadi böhranının mənfi təsirinin qarşısının alınmasında dövlət başçısının böyük uzaqgörənliklə apardığı iqtisadiyyatın şaxələndirilməsi siyasətinin, o cümlədən bu siyasətin prioritet istiqamətlərindən olan regionların inkişafı strategiyasının müstəsna əhəmiyyəti var.

Son illərdə infrastruktur layihələrinin icrası, biznes və investisiya mühitinin yaxşılaşdırılması, həyata keçirilən dövlət dəstəyi tədbirləri regionların iqtisadi potensialını gücləndirməklə cənab Prezidentin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri kimi sahibkarlığın inkişafına təkan vermişdir.

Təkcə 2014-cü ildə bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, prosedurların sadələşdirilməsi, əsassız müdaxilələrin qarşısının alınması və digər istiqamətlər üzrə mühüm işlər görülmüş, elektron xidmətlərin sayı 450-yə çatmışdır. Regionlarda 4400 müəssisə fəaliyyətə başlamış, sahibkarlıq subyektlərinin sayı 2004-cü illə müqayisədə 2,5 dəfə artaraq 386 minə çatmış, vergi daxilolmaları ötən ilə nisbətən 9,8 faiz artmış, xərclərini yerli gəlirlər hesabına maliyyələşdirən şəhər və rayonların sayı 6-ya çatmışdır.

Nazirlər Kabinetinin cari ilin doqquz ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısı bir daha vurğulamışdır ki, "Bu il "Kənd təsərrüfatı ili"dir. ...kənd təsərrüfatı istehsalı 6,7 faiz artıb. Kənd təsərrüfatının inkişafı, artımı həm sosial, həm də iqtisadi sahədir. Biz çalışırıq və çalışacağıq ki, özümüzü əsas ərzaq məhsulları ilə 100 faiz təmin edək".

İntensiv metodlara əsaslanan aqrar sektorun yaradılmasına yönəlmiş siyasət, dövlət dəstəyi tədbirləri, eləcə də bu sahədə sahibkarlığın inkişafı, müasir texnologiyalara əsaslanan yüzlərlə müəssisənin açılması öz nəticəsini vermiş, idxaldan asılılığın azalmasına, özünütəminetmə səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur.

Məlum olduğu kimi, istehsalın intensivləşdirilməsi müasir dövrdə qlobal inkişafın əsas istiqamətini təşkil edir. Belə ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatlarına əsasən son onilliklər ərzində dünya üzrə əkin sahələri 9 faiz, bitkiçilik məhsullarının həcmi 2,3 dəfə, dünya üzrə mövcud mal-qaranın sayı 26 faiz, süd istehsalı 61 faiz artmışdır.

Məhz bunların nəticəsidir ki, son illərdə əksər kənd təsərrüfatı məhsulunun istehsal həcminin artım tempi, ölkədə kənd əhalisinin sayının artım tempini dəfələrlə üstələmişdir.

Beləliklə, idxal qiymətlərinin azaldılması ilə yanaşı, tətbiq edilən güzəştlərin həcminin artırılması hesabına 2015-ci ildə fermerlər texnikanı əvvəlki ilə nisbətən 50 faiz, gübrəni isə 30 faiz aşağı qiymətlə əldə edə bilmişlər. Bu da məhsulun maya dəyərini əhəmiyyətli dərəcədə aşağı salmaqla bərabər, onların gəlirlərinin artmasına və investisiya imkanlarının genişləndirilməsinə müsbət təsir göstərmişdir.

2015-ci ilin Prezident İlham Əliyevin sərəncamı ilə "Kənd Təsərrüfatı ili" elan edilməsi bir sıra dövlət qurumları ilə yanaşı, Azərbaycan Sahibkarlar Konfederasiyası qarşısında bir neçə ciddi vəzifələr qoymuşdur. Kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin artırılması, yeni emal müəssisələrinin yaradılması bu sahədə çalışan sahibkarlara dövlət tərəfindən xüsusi köməyin göstərilməsi bu qəbildən olan tədbirlərdəndir.

Prezident İlham Əliyevin "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 3 mart 2014-cü il tarixli fərmanı sahibkarlığın inkişafına göstərilən diqqət və qayğının, bu sahəyə verilən böyük önəmin, özəl bölməyə dövlət dəstəyi tədbirlərinin ardıcıllığının göstəricisi, sahibkarlığın inkişafının yeni mərhələsinin hüquqi əsaslarını özündə əks etdirən mühüm konseptual sənəddir.

Dövlət başçısının bu fərmanı Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması, onun ən qabaqcıl təcrübələr əsasında təkmilləşdirilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirilməsi üçün əsas olmaqla, qarşıdakı illərdə sahibkarlığın inkişafı üçün geniş imkanlar açır. Fərmanla müəyyənləşdirilmiş vəzifələr aidiyyəti dövlət qurumları ilə birlikdə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla sahibkarlıq sahəsində 8 istiqamət üzrə geniş islahatların aparılmasını tələb edir.

Bununla yanaşı, ölkə Prezidentinin müvafiq fərmanı ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununu göstərmək olar.

Göstərilən qanunda onun tətbiq dairəsi, yoxlamaların məqsəd və prinsipləri, yoxlayıcı orqanların səlahiyyətləri ilə yanaşı, sahibkarlara məsləhətlərin verilməsi kimi cox əhəmiyyətli müddəalar nəzərdə tutulmuşdur. Hazırda ölkədə tətbiq edilən bu qanunun yoxlamaların planlı olması, yoxlamaların elektron ucotunun aparılması, vahid məlumat reyestrinin olması, sahibkarların işə məsuliyyətlə yanaşmalarına və nəticədə istehlakcıların hüquqlarının qorunmasına yönəldilmişdir.

Regional inkişaf proqramları ilə yanaşı, "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı", "Sahibkarlığa dövlət maliyyə dəstəyinin göstərilməsi sahəsində əlavə tədbirlər haqqında", "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi qaydalarının təkmilləşdirilməsi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Azərbaycan Respublikasında azad iqtisadi zonaların yaradılması haqqında", "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında", "Sahibkarlıq sahəsində yoxlamaların nizama salınması və istehlakçıların hüquqlarının qorunmasının təmin edilməsinə dair bəzi tədbirlər haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə" və digər fərman və sərəncamların, qanunların, dövlət proqramlarının icrası sahibkarlığın inkişafına təkan vermiş, qeyri-neft sektorunun inkişafını stimullaşdırmışdır.

Azərbaycan Respublikası Prezidentinin 19 oktyabr 2015-ci il tarixdə imzaladığı "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında" Fərmanı, Sahibkarlıq fəaliyyətinin inkişafının Azərbaycan Respublikasında dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri olduğunu bir daha sübut edir.

Bu fərmanın müddəaları ilə sahibkarlıq fəaliyyətinin həyata kecirilməsi üçün tələb olunan bütün növləri üzrə xüsusi razılıq (lisenziya) verilməsi Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinə həvalə edilmişdir.

Sahibkarlıq fəaliyyəti növünün xüsusiyyətndən asılı olaraq, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən zəruri hesab edildikdə xüsusi razılıq verilməsi ilə əlaqədar aidiyyəti dövlət orqanlarının rəyi alınmalıdır. Əgər müəyyən edilmiş müddətdə aidiyyəti dövlət orqanı tərəfindən rəy bildirilmədikdə müsbət rəy verilmiş hesab edilir.

Eyni zamanda sahibkarlıq fəaliyyətinin həyata kecirilməsi üçün tələb olunan bütün növləri üzrə xüsusi razılıq (lisenziya) verilməsi qaydasının sadələşdirilməsi və şəffaflığın təmin edilməsi məqsədilə xüsusi razılıq (lisenziya) verilməsi xidmətinin "ASAN xidmət" mərkəzində həyata kecirilməsi, habelə xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin sayının minimuma endirilməsi məsələləri də bu fərmanda öz əksini tapmışdır.

Bunula bərabər, 20 oktyabr 2015-ci il tarixdə Milli Məclisin plenar iclasında Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə daxil olan "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanun layihəsi müzakirəyə çıxarılmış və qəbul edilmişdir. Qəbul olunmuş qanun layihəsində 2015-ci ilin noyabrın 1-dən hesablanmaq şərti ilə 2 il müddətinə yoxlamaların dayandırılması, bu müddətdə yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparılacağı nəzərdə tutulmuşdur.

Bununla bağlı gələcəkdə sənədlərin elektron qaydada verilməsini təmin edən "Elektron lisenziya" portalının yaradılması nəzərdə tutulmuşdur ki, bu da sahibkarların bu sahədə işlərini asanlaşdıracaq, onların operativ və daha səmərəli işləmələri üçün zəmin yaradacaq.

Məhz bunların nəticəsidir ki, müəyyənləşdirilmiş iqtisadi inkişaf strategiyası nəinki ölkəmizin inkişafında müstəsna rol oynayır, hətta bir model olaraq keçid iqtisadiyyatı ölkələrinin iqtisadi inkişafı baxımından nümunəyə çevrilməkdədir.

Bütün bunlarla yanaşı, sahibkarlıq subyektlərinin xarici bazarlara çıxış imkanlarının genişləndirilməsinə də hökumət səviyyəsində ciddi dəstək verilir. Bu məqsədlə İqtisadiyyat və Sənaye Nazirliyinin tabeliyində yaradılmış İxracın və İnvestisiyaların Təşviqi Fondu ölkə sahibkarlarının ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara dəstək verir. Sahibkarların işgüzar əlaqələrinin inkişafı məqsədilə həm ölkə daxilində, həm də xaricdə müxtəlif biznes forumlar, sərgilər, seminar və konfranslar keçirilir. Bu cür tədbirlər yerli iş adamlarının tanıdılması, məhsulların xarici bazarlara çıxarılması, işgüzar müqavilələrin imzalanması, xarici işgüzar əlaqələrin inkişafı baxımından əhəmiyyətlidir.

İctimai həyatın bütün sahələrində dönüş yaranmış, əhalinin maddi rifah halının yaxşılaşmasında nəzərəçarpacaq uğurlar qazanılmış və bu uğurların qazanılmasında təbii ki, sahibkarların rolu danılmazdır.

Dövlət başçısı İlham Əliyevin uğurla reallaşdırdığı inkişaf strategiyası artıq özünün növbəti - üçüncü mərhələsi ərəfəsindədir. 2015-2023-cü illəri əhatə edəcək bu mərhələdə Azərbaycanın inkişaf etmiş ölkələr sırasına çıxarılması və əhalimizin yüksək gəlirli topluma çevrilməsi, qeyri-neft sektorunun, özəl bölmənin, sahibkarlığın hərtərəfli inkişafı sayəsində ümumi daxili məhsulun iki dəfə artırılması, dövlət və özəl qurumların birgə fəaliyyəti üzrə yeni strategiyanın hazırlanması, ən müasir texnologiyaları tətbiq etməklə iqtisadiyyatın modernləşdirilməsi, elm və innovasiyalara əsaslanan cəmiyyət quruculuğu, hüquqi dövlətçilik prinsiplərinin, insan hüquq və azadlıqlarının tam bərqərar edilməsi - Prezident İlham Əliyevin qarşıya qoyduğu başlıca hədəflərdir.

Konfederasiya tərəfindən bu işdə fəallıq göstərmək, sahibkarlara kömək etmək məqsədilə ayrıca tədbirlər planı işlənib hazırlanmış və hazırda onun həyata keçirilməsi sahəsində mühüm işlər aparılır.

Konfederasiya ölkədə iş adamlarının maraqlarından cıxış edən və sahibkarlığın inkişafına dəstək verən ümumrespublika birliyidir. O özündə minlərlə sahibkarlıq subyektini, o cümlədən 60-a qədər assosiasiya və birlikləri birləşdirir.

Bu gün yaradılan əlverişli şəraitdən bacarıqla istifadə edib işini qurmuş sahibkarlarımızın timsalında xarici ölkələrdə ən müxtəlif layihələrin icrasına sərmayə yatırılır. Azərbaycanlı iş adamının çox qısa müddətdən sonra hətta xarici ölkəyə külli miqdarda investisiya qoymağa vəsait tapması sahibkarlığın inkişafına dövlət səviyyəsində verilən dəstək və diqqətin nəticəsində mümkün ola bilərdi.

Konfederasiya sosial tərəfdaşlığın subyekti kimi Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə birlikdə ölkənin sosial-iqtisadi siyasəti və sosial - əmək münasibətləri üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyətlərini müəyyən edən Baş Kollektiv Saziş bağlayır.

Konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir, yalnız sahibkarlara dəstək verməklə kifayətlənmir, müvafiq dövlət qurumları, həmkarlar ittifaqları ilə əməkdaşlıq çərçivəsində ölkədə əmək münasibətlərinin tənzimlənməsində fəal iştirak edir.

Eyni zamanda əmək hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizlik Azərbaycan hökuməti ilə əməkdaşlığın prioritet istiqamətlərindəndir.

Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkələrin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edərək yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda və investisiya qoyulmasında kömək göstərir.

Səmərəli idarəolunmanı təşkil etmək məqsədilə konfederasiyanın yanında yaradılmış 10 daimi komissiya sahələr üzrə, respublikanın bütün bölgələrini əhatə edən 10 regional nümayəndəlik regional idarəetməni təmin edir. Bu, regionlarda sahibkarlığın inkişafına dəstək verilməsi işini xeyli asanlaşdırmış, nümayəndəliklər vasitəsilə sahibkarlara göstərilən xidmətlərin və informasiya təminatının yaxşılaşdırılması və təkmilləşdirilməsinə, sahibkarlığın inkişafı istiqamətində proqramların tərtib edilməsinə və həyata keçirilməsinə şərait yaratmışdır.

Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının sahibkarlarla, dövlət orqanları ilə, yerli qurumlarla birgə işi ilə yanaşı, beynəlxalq qurumlarla, o cümlədən Beynəlxalq İşəgötürənlər Təşkilatında, Sənayeçilərin və Sahibkarların Beynəlxalq Konqresində üzvlüyü davam etdirməklə, respublikada fəaliyyət göstərən bir çox dövlətlərin və Azərbaycanın xaricdəki səfirlikləri ilə, beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da genişləndirilmişdir.

Beynəlxalq əlaqələrimiz zəngin və çoxşaxəlidir. Beynəlxalq təşkilatlar və beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıq, beynəlxalq və ölkələrarası ikitərəfli biznes forum və sərgilərdə iştirak etmək, Azərbaycan Sahibkarlarını beynəlxalq aləmdə keçirilən tədbirlərdə təmsil etmək, Konfederasiya üzvlərinin beynəlxalq sərgi və forumlarda iştirakına yaxından kömək etmək və sair məsələlər beynəlxalq əlaqələrimizin əsas xəttini təşkil edir.

Cari ildə Konfederasiya rəhbərliyi Beynəlxalq Əmək Təşkilatının Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üzrə Moskva Subregional Bürosunun direktoru Dmitrina Dimitrova ilə görüşmüş və hər iki təşkilat arasında gələcək əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Sahibkarlar Konfederasiyasının təşəbbüsü və təşkilatçılığı ilə mütamadi olaraq Azərbaycan iş adamlarının xarici iş adamları ilə görüşləri keçirilmiş, həmin görüşlərdə nəqliyyat, metal, tikinti-inşaat, memarlıq, mebel istehsalı, podratçılıq, enerji sistemləri, turizm kimi mühüm məsələlər üzrə əməkdaşlığın qurulması və investisiya məsələləri müzakirə edilmişdir.

Sahibkarlığın inkişafının ən vacib komponentlərindən biri də sahibkarların maarifləndirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi, konsaltinq və innovasiya xidmətlərinin göstərilməsidir. Yerli sahibkarların potensial imkanlarının reallaşdırılmasına dəstək və biznesin müasir formalarının təşviq edilməsi, xarici əlaqələrin genişləndirilməsi məqsədilə təkcə 2014-cü il ərzində ölkə sahibkarlarının iştirakı ilə Azərbaycanda 200-dən cox, xarici ölkələrdə 40-dan cox biznes forum və konfrans kecirilmişdir.

Bu işlərin görülməsi üçün digər tədbirlərlə yanaşı, işi günün tələbləri səviyyəsində qurmaq bacarığına malik olan kadrların hazırlanmasına ehtiyac var.

Bunu nəzərə alaraq, özəl sektorun inkişaf etdirilməsi üçün yeni kadrların hazırlanması sahəsində əməkdaşlığın davam etdirilməsi məqsədilə Azərbaycan Sahibkarlar Konfederasiyası Təhsil Nazirliyi ilə Anlaşma memorandumu imzalamışdır.

Kecən müddət ərzində Konfederasiya Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Biznes Şurasının, Türkdilli Dövlətlər Şurasının tədbirlərinə qatılmış, konfederasiyanın xarici ölkələrdəki yeni nümayəndəliklərinin yaradılması, mövcud olanlarla əməkdaşlığın inkişaf etdirilməsi, bir sıra beynəlxalq təşkilatlar, diplomatik nümayəndəliklər, qeyri-hökumət təşkilatları, biznes qurumların nümayəndələri ilə işgüzar əlaqələri inkişaf etdirilmiş, Konfederasiya "Biznes Konsaltinq" Məhdud Məsuliyyətli Cəmiyyətinin bir sıra xarici biznes qurumlarla əməkdaşlıq əlaqələrinin qurulması və birgə biznes görüşlərin təşkili həyata keçirilmiş, "Beynəlxalq Əlaqələr və xarici investisiyalı şirkətlər" komissiyasının əsasnaməsi işlənib hazırlanmış, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili yanında Biznes və İnsan hüquqları üzrə İşçi Qrupunun iclaslarında Konfederasiya təmsil olunmuşdur.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ölkəmizin biznes mühiti barədə beynəlxalq aləmə geniş məlumatların verilməsi, ölkələrarası biznes əlaqələrinin genişləndirilməsi, kiçik və orta sahibklarlığın problemlərinin öyrənilərək müvafiq qurumlara çatdırılması sahəsində ardıcıl fəaliyyət göstərməkdədir. Bu istiqamətdə Azərbaycan Sahibkarlar Konfederasiyasının xarici dövlətlərdə nümayəndələrinin fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Artıq 14 xarici ölkədə Azərbaycan Sahibkarlar Konfederasiyası nümayəndələri fəaliyyət göstərir. Yaxın perspektivdə Niderland, Belçika və İran İslam Respublikalarında da analoji nümayəndəliklərin açılması gözlənilir.

Ötən müddət ərzində Konfederasiya tərəfindən bir sıra beynəlxalq təşkilatlar, diplomatik nümayəndəliklər, qeyri-hökumət təşkilatları, biznes qurumların nümayəndələri ilə də işgüzar əlaqələr inkişaf etdirilmişdir.

Azərbaycan Respublikasında sahibkarların potensial imkanlarının reallaşdırılmasına dəstək və biznesin müasir formalarının təşviq edilməsi, xarici əlaqələrin genişləndirilməsi məqsədilə 2015-ci ildə Azərbaycan Sahibkarlar Konfederasiyasının bilavasitə yaxından iştirakı ilə respublikamızda və xarici ölkələrdə 80-dən çox biznes forum, sərgi və konfrans keçirilmiş, eləcə də qeyri-neft məhsullarının satış bazarlarının genişləndirilməsi məqsədilə Amerika, Avropa, Yaxın Şərq ölkələrində, Rusiyada keçirilmiş sərgilərdə Azərbaycan Sahibkarlarının iştirakı təmin edilmişdir.

Buna baxmayaraq, bəzən sahibkarlar öz fəaliyyətlərində müəyyən cətinliklərlə üzləşirlər. Biz çalışırıq ki, sahibkarlarla dövlət orqanları arasında körpü rolunu oynayaq. Bu sahədə xeyli planlarımız var. Sahibkarların qarşılaşdığı cətinliklərdə onlara yaxından kömək etmək Konfederasiyanın əsas məqsədlərindən biridir.

Müasir dünyada kiçik və orta sahibkarlar ümumən bizneslə məşğul olan insanların üçdə ikisindən çoxunu əhatə etməklə yanaşı, dünya iqtisadiyyatina töhfə verməkdədir.

Kiçik və orta sahibkarlığın davamlı inkişafı barədə danışarkən qeyd etmək lazımdır ki, hazırda dünya əhalisinin aktiv hissəsinin 80 faizindən çoxu kiçik və orta sahibkarlıqla məşğul olurlar. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən təqdim edilmiş son hesabatlara görə, maliyyə böhranı kiçik və orta sahibkarların biznes fəaliyyətinə ən çox zərər yetirmiş və nəticə etibarilə onların maliyyə mənbələrinə çıxışını önəmli dərəcədə azaltmışdır.

Konfederasiya rəhbərliyi Azərbaycanda fəaliyyət göstərən Amerika Birləşmiş Ştatları, Almaniya, İtaliya, Fransa, Mərakeş, Türkiyə, Rusiya və digər xarici ölkələrin səfirləri ilə görüşmüş, ölkələr arasında mövcud əməkdaşlıq imkanlarını müzakirə etmişlər.

Konfederasiya ilə Avropa İnkişaf və Yenidənqurma Bankı arasında gələcək əməkdaşlıq perspektivlərinin müzakirəsinə dair görüş keçirilmiş, Avropa İnkişaf və Yenidənqurma Bankının Bakıdakı daimi nümayəndəliyi ilə birlikdə "dəyirmi masa" təşkil olunmuş, Azərbaycan üzrə Strategiya sənədi müzakirə edilmişdir.

Son illər Konfederasiya dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən 30-dan çox İşəgötürənlər Təşkilatları və Assosasiyaları ilə Əməkdaşlıq Müqaviləsi imzalamışdır. Bu müqavilələr ölkələrimiz arasında biznes əlaqələrinin genişlənməsi və daha səmərəli nəticə verməsi istiqamətində mühüm rol oynayır.

"Biznes-20" tədbirinin 2015-ci ildə Bakıda kecirilmiş növbəti toplantısının təşkilində Konfederasiya yaxından iştirak etmiş, tədbirdə iştirak etmiş xarici ölkərərin şirkət rəhbərləri ilə əlaqələrin qurulması üçün bir sıra müqavilələr bağlanmışdır.

Bu tədbirin davamı olaraq 3 sentyabr 2015-ci ildə Ankara şəhərində keçirilmiş Türkiyə Respublikasının sədrlik etdiyi və dünyanın iqtisadi cəhətdən ən çox inkişaf etmiş 20 ölkəsini əhatə edən G20 qrupuna üzv ölkələrin əmək, məşğulluq və maliyyə nazirlərinin, habelə mərkəzi bank rəhbərlərinin iştirakı ilə iki gün davam edən toplantıda Azərbaycan Sahibkarlar Konfederasiyasının rəhbərliyi də iştirak etmişdir. Toplantıda iştirak etmiş nümayəndə heyəti ilə aparımış müzakirələr Azərbaycan Sahibkarlar Konfederasiyasının gələcək fəaliyyəti üçün real zəmin yaratmışdır.

Cari ildə kecirilmiş Beynəlxalq Quşçuluq Forumu çərçivəsində Azərbaycan Sahibkarlar Konfederasiyası ilə Avroasiya Quşçuluq Assosiasiyası arasında birgə imzalanmış əməkdaşlıq müqaviləsi əsasında gələcəkdə iki təşkilat arasında təcrübə mübadiləsinin aparılması, bu sahədə analitik məlumatların hazırlanması və müasir avadanlıqların alınması ilə bağlı əməkdaşlıq həyata keçiriləcəyi barədə razılıq əldə edilmişdir.

Azərbaycan sahibkarlarının xarici ölkələrə investisiya yatırması istiqamətində araşdırmalar aparılmış, bu günədək 50-yə yaxın ölkə ilə əməkdaşlıq müqaviləsi imzalanmış və bu sənədlər sayəsində faydalı əməkdaşlıq imkanları yaranmışdır.

Beynəlxalq əlaqələrimizin bundan sonra daha da genişləndirilməsini planlaşdırırıq. Hesab edirik ki, bu yolla Azərbaycan sahibkarlarının istehsal etdiyi məhsulların dünya bazarına cıxarılmasını, ölkəyə yeni texnologiyaların gətirilməsini, investisiya yatırımının stimullaşdırılmasına nail olmaq olar.

Konfederasiya sahibkarların problemlərini həll edilməsində, onların maariflənməsində daim maraqlıdır. Eyni zamanda regionlarda sahibkarlığın inkişafının sürətləndirilməsi üçün onların təşkilatlanmasına ehtiyac var.

Bu gün yeni aqrokimya laboratoriyalarının yaradılması, kənd təsərrüfatı məhsulları istehsalçılarını kreditləşdirəcək ixtisaslaşmış kənd təsərrüfatı bankının yaradılması, drenaj-kollektor şəbəkələrinin təkmilləşməsi, mövcud tədarük satış-məntəqələrinin modernləşdirilməsi və yenilərinin yaradılması, digər problemlər həlli vacib məsələlərdir.

Azərbaycanın dünya bazarına ixrac olunan məhsullarına böyük maraq heç kəsə sirr deyil. Ona görə də ölkədə istehsal edilən məhsulların rəqabət qabiliyyətinin artırılması və dünya miqyasında brendə çevrilməsi üçün iri investisiyaların ayrılmasına ciddi ehtiyac duyulur və bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir.

Dövlət başçısının 29 dekabr 2012-ci il tarixli fərmanı ilə təsdiq olunmuş "Azərbaycan 2020: Gələcəyə baxış" Milli İnkişaf Konsepsiyasında ölkəmizin sosial-iqtisadi həyatının bütün sahələrində prioritetlər müəyyən edilmiş, qeyri-neft sektorunun inkişafı, ixracın təşviqi, əhalinin layiqli həyat səviyyəsinin təminatı, işsizliyin minimuma endirilməsi başlıca hədəflər kimi müəyyənləşdirilmişdir.

Azərbaycan Sahibkarlar Konfederasiyası da ölkə sahibkarlarını təmsil edən bir təşkilat olaraq həm əldə etdiyimiz uğurları dəyərləndirir, həm də müasir çağırışları dərindən təhlil edir. Təbii ki, Konfederasiya öz fəaliyyətini daha da canlandırmalı, müasir dövrün tələbləri ilə uyğunlaşan iş ahənginə malik olmalıdır.

Azərbaycan Sahibkarlar Konfederasiyası bununla bağlı silsilə və ardıcıl tədbirlər həyata keçirir. Bu, istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istər sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması, istərsə də sahibkarların maarifləndirilməsi işinin daha da dərinləşdirilməsi ilə bağlıdır.

Bu gün dünya ölkələrinin üzləşdiyi mürəkkəb problemlər fonunda Azərbaycanın dayanıqlı inkişafı, bütün sosial proqramların davam etdirilməsi ulu öndər Heydər Əliyevin inkişaf strategiyasına əsaslanan və müasir inkişaf tempinə cavab verən siyasətinizin alternativsiz olduğunu bir daha göstərir və sözsüz ki, bu siyasət qarşıdakı illərdə də ölkəmizin iqtisadiyyatını dünyada gedən mənfi proseslərdən qoruyaraq onun davamlı inkişafını təmin edəcəkdir.

***Məmməd MUSAYEV,***
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***